Azad Azərbaycan

03 iyun 2021-ci il №37 (3692)



# Astaranın vətənpərvər, qəhrəman oğlu: Nurlan Fərəməzov

**44 gün davam edən Vətən müharibəsində əzəli yurd yerlərimizin azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan odlar yurdu Azərbaycanın qəhrəman oğullardan söz düşəndə Nurlan Fərəməzovun adı böyük fəxrlə, qürurla çəkilir. Astara rayonunun Təngərüd kəndindən olan bu Vətən sevdalı igidin 28 illik ömrü millətin ucalığı, torpağın azadlığı üçün yaşandı.**

Nurlan kənd orta məktəbini bitirəndə öz sağlam əqidəsi, zəngin mənəviyyatı, el-obaya bağlılığı ilə yaşadığı cəmiyyətdə özünü yaxşı tanıda bilir. Həyata başlayanda nəcib, xeyirxah əməllərlə gələcəyə yol alır. İllərin səfində Vətənə daha çox fayda vermək, insanlara gərək olmaq amalı onu Azərbaycan Tibb Universitetinə aparır. Nurlan tələbə olduğu gündən bütün eşqini, məhəbbətini oxumağa, dərindən öyrənməyə verir. 2015-ci ildə məktəbi yüksək savadla başa vurur. Xoş əməllərə dönüb ürəklərə yağmaq üçün hərbi həkim kimi işə başlayır.

Xalqını ürəkdən sevən saf, qeyrətli Vətən oğlu Nurlan Fərəməzov Gədəbəy rayonunda məntəqə tibb xidməti rəisi olur. Göstərdiyi nümunəvi xidmət, doğma Azərbaycanına bağlılıq eşqi Nurlana sonsuz hörmət, nüfuz gətirir. Qəlbində mənfur erməni dığalarına olan nifrət azalmır,



əsgərlərə də birinci məsləhəti bu olur: **"Vətən torpağını canı bahasına qorumaq, onun azadlığı uğrunda döyüş meydanında düşməni məhv etmək hər bir qeyrətli oğlun müqəddəs borcudur""**

Nurlan bir müddət Tovuzda öz işini davam edir. Burada da fəaliyyətinə görə savadlı həkim, ləyaqətli insan, vətənpərvər bir şəxs kimi tanınır. Vətən keşikçilərin sağlamlığını yüksək səviyyədə qorumaqla bərabər, müxtəlif təlimlərə qatılır, həmişə də əla döyüşçü keyfiyyətləri nümayiş edir.

Qarabağın azadlığı uğrunda özünə hər an fəda etməyə hazır duran Nurlan Vətən müharibəsi başlanan gündən savaş meydanında olur. Düşmənə vurduğu bütün zərbələr uğurlu alınır. Cəbrayılda gedən ağır müharibədə xüsusi hünər göstərir. Həm də hərbi həkimi olaraq çox yaralı igid oğullara ikinci həyat verir. Oktyabrın 9-da tibb xidmətin baş leytenantı Nurlan Fərəməzov başının arxa tərəfindən ciddi zədə alır. Buna baxmayaraq son nəfəsə qədər düşmənlə vuruşur. Çoxlu qan itirir, elə döyüş meydanında əbədiyyətə qovuşur.

**Vətən sevgisi ilə böyümüş, onun azadlığı naminə Azərbaycanın şanlı zəfər tarixinə öz adını yazmış Nurlan Fərəməzovla bütün astaralılar qürur duyur, onu Vətənə sədaqət, torpağa sevgi nümunəsi kimi ürəklərində yaşadırlar.**

Zəfər ORUCOĞLU